# Azərbaycanın dünya birliyinə mədəni inteqrasiyası

## *Avropada mədəniyyətin maliyyələşdirmə məsələsinə müxtəlif yanaşmalar mövcuddur*

**Hər bir dövlətin mədəni inkişafına xidmət edən, mədəniyyəti idarə edən orqanlar, administrativ strukturlar mövcuddur. XX əsrin 60-70-ci illərində dünyanın bir çox ölkələrində mədəniyyət nazirlikləri yaradılmışdır. İlkin mərhələdə onların fəaliyyət istiqamətləri olduqca məhdud idi, Misal üçün, Hindistanda mədəniyyətin idarə olunması təhsil nazirliyi, informasiya və radioyayım, turizm, ictimai işlər, yaşayış tikinti, kənd təsərrüfatı, ticarət və sənətkarlıq nazirlikləri tərəfindən həyata keçirilir. Bir çox hökumətlər tərəfindən geniş anlamda dərk olunan mədəniyyət - təhsil, kütləvi kommunikasiya, turizm, sosial xidmət, gənclərin tərbiyəsi kimi sahələri özündə ehtiva edir.**

Əlbəttə ki, bu qədər müxtəlif və geniş sferalar müxtəlif idarələr tərəfindən idarə olunur. Buna görə də, onların fəaliyyətinin əlaqələndirilməsi üçün hökumət idarələri və ya parlament komissiyaları arasında əlaqələr üzrə komitələr yaradılır. Mədəni həyatda dövlət idarəetmə orqanları ilə yanaşı, milli və beynəlxalq qeyri-hökumət təşkilatlarının özünəməxsus yeri vardır. Müxtəlif təmayüllü cəmiyyətlər, yazıçı və jurnalist təşkilatları, yaradıcı kollektivlər və assosiasiyalar, özəl nəşriyyatlar, kinostudiya və muzeylər və digər ölkənin mədəni sahəsinin fəaliyyətini təmin edən geniş şəbəkə yaradır.

Mədəni fəaliyyətin planlaşdırılması adətən sosial inkişafın ümumi planlaşdırılmasına daxil edilir və ya təhsil və kütləvi kommunikasiya vasitələrinin planlaşdırılması ilə birbaşa əlaqəli olur. Mədəni fəaliyyətin planlaşdırılması sahəsində ciddi maneə mədəni inkişafın əsaslandırılmamış göstəricilər və qeyri-dəqiq statistik məlumatlardır. Mədəni sahənin statistikası, bir qayda olaraq, kəmiyyət göstəriciləri ilə məhdudlaşır (kitabxana, muzey, qəzet və s. sayı). Burada əhalinin müxtəlif təbəqələrinin mədəni ehtiyacları və tələbləri, mədəni fəallığın müxtəlif növlərinin təhlili, mədəni məsrəflər və büdcə haqqında məlumat nəzərdə tutulmur.

Mədəniyyətin maliyyləşdirmə metodları müxtəlifdir. Mədəniyyətə və təhsilə sərf olunan xərclərin ümumi sayını müəyyən etmək olduqca çətindir. Yalnız inkişaf etmiş ölkələr rəsmi subsidiya olunan təhsilə, mədəniyyət mərkəzlərin yaradılmasına və sairə böyük xərclər çəkmək imkanındadırlar. Böyük gəlirlərdən məhrum olan ölkələr çox vaxt milli və xarici ictimai təşkilatların, digər ölkələrin mədəniyyət agentlikləri və missiyalarının maliyyə yardımına arxalanırlar.




Bu gün Avropada mədəniyyətin maliyyələşdirmə məsələsinə müxtəlif yanaşmalar mövcuddur. Lakin yanaşma müxtəlifliyinə baxmayaraq, bütün Avropa ölkələrində mədəni inkişafın büdcədənkənar dəstəklənməsi aktualdır. Biznes, incəsənət və mədəniyyət üzrə Avropa Komissiyası, Fondların Avropa Mərkəzi, Avropa İttifaqı və Avropa İrsi Qrupunun aparıcı mütəxəssislərinin ümumi rəyinə görə, mədəniyyət sahəsinin sponsorluq məsələsi ayrı-ayrı ölkələrin qanunvericiliyi və ümumiyyətlə, ümumavropa səviyyəsində dəstəklənməlidir.

**"Beynəlxalq mədəni əlaqələr" kitabında qeyd edilir ki, Avropanın inkişaf etmiş ölkələrindən biri olan Böyük Britaniyanın hakim dairələri həmin fikrə tərəfdardırlar. 2004-cü ilin məlumatlarına görə, Britaniya iqtisadiyyatının mədəniyyət sektorunda 500000 nəfər fəaliyyət göstərir ki, bu sahədən əldə olunan gəlir 1995-ci ildə 7,5 mlrd.funt-sterlinq təşkil etmişdir.**

İngiltərədə mədəniyyətin özəl sektor tərəfindən maliyyələşdirilməsi dövlət tərəfindən, xüsusilə, Mədəniyyət, İdman və KİV Departamenti tərəfindən ənənəvi olaraq dəstəklənir. XX əsrin 70-ci illərinin sonundan başlayaraq, İngiltərənin Art Counsil (İncəsənət Komitəsi) kimi bir neçə mədəniyyət institutu maliyyə tədqiqatları üzrə bir çox proqram və layihələri həyata keçirmişdir.

Böyük Britaniyada tətbiq olunan mədəniyyətin dəstəklənməsinə, mədəni layihələrin həyata keçirilməsinə yönəldilmiş Milli Lotereya xüsusilə qeyd edilməlidir. Milli Lotereyadan əldə olunan gəlir hər il 1 mlrd. funt sterlinq təşkil edərək mədəniyyətin və mədəni irsin inkişafına yönəldilir. 1993-cü ildə yaradılan milli lotereya özəldir. Lotereyanın operatorları Camelot. Group Pic adlı konsersiumlar gəlirlərin 78 % administrativ xərclərə və mükafatları, 28% isə mədəniyyətin, idmanın, xeyriyyə və digər sosial ehtiyacların ödənilməsi üçün nəzərdə tutulur.

Maraqlısı odur ki, lotereya layihələri tamamilə maliyyələşdirmir. Məhz buna görə də, layihə menecerləri çatışmayan maliyyəni dövlətdən, yerli icra komitələrindən və sponsorlardan əldə etməyə məcbur olurlar. Beləliklə, sivil ölkələrdə mədəniyyətin idarə olunmasının müxtəlif modelləri tətbiq olunmaqdadır. Bu gün mədəniyyətin idarəolunmasının effektiv mexanizmilərinin işlənilməsi istər iqtisadi cəhətdən inkişaf etmiş, istərsə də tranzit iqdisayyatlı Üçüncü Dünya ölkələri üçün-həllini söyləyən aktual məsələdir.

Son illərdə mədəni və demoqrafik faktorların təhlilinə də böyük diqqət verilir. Bu sahədə aparılan tədqiqatlar əhalinin, istər bütövlükdə, istərsə də ayrı-ayrı mədəni istehlak proseslərini, zövq və həyat tərzi strukturunu müəyyən edir. Mədəni demoqrafiya sahəsində aparılan tədqiqatların əsas məqsədi ənənəvi mənəvi tələbatların yeni mədəni maraq və ehtiyaclarla əvəz olunması, bu dəyişikliklərin mədəni sahənin istehsal strukturuna təsir dərəcəsinin öyrənilməsi və proqnozların hazırlanmasıdır.

**"Mədəniyyət" anlayışı geniş anlamda insan fəaliyyətinin bütün sahələrini və növlərini əhatə edir - maddi, mənəvi, normativ, idraki mədəniyyət. İnsan tərəfindən yaradılmış cəmiyyətin mədəni sferası onu heyvan aləmindən fərqləndirərək materiyanın inkişafının sosial formasının spesifik atributuna çevrildi. Eyni zamanda da, cəmiyyət bioloji növ kimi biosferanın fəaliyyət qanunauyğunluqlarına tabedir ki, onların pozulması qlobal ekoloji böhranla nəticələnə bilər. Bu növ dissonanslar içərisində birinci yeri planetin bir regionunda dayanmadan əhalinin sayının kəskin sürətdə artması və tam əksinə, digər yerlərdə isə əhali sayının kəskin sürətdə düşməsidir (depopulyasiya).**

Əhali sayının tənzim edilməsi və idarə olunması problemi mədəniyyətin maddi-mənəvi və dəyər-normativ sferaları ilə yanaşı aktuallıq kəsb edir. Bu problemin həllində əhali sayının təbii yollarla tənzimlənməsi üsulu effektiv deyildir. Burada insan fəaliyyətinin ayrı-ayrı sahələrindən götürülən tədbirlər arsenalı köməklik göstərə bilər ki, bu da elmi ədəbiyyatda "demoqrafik mədəniyyət" termini ilə qeyd olunur.

Əhalinin demoqrafik tarazlıq göstəricisi (doğum və ölüm səviyyələrinin eyni balansı) cəmiyyətin demoqrafik durumunun stabilliyini müəyyən edir. Demoqrafik keçid (əhali artımının bir tipindən digərinə keçid) nəzəriyyəsinin yaranması XX əsrin əvvəllərinə təsadüf olunur. Fransız alimi, deroqraf A.Landri (1874-1956) əhali artımı hadisəsinin sosial-iqtisadi şəraitdən asılı olduğunu nəzəri cəhətdən əsaslandıraraq 1934-cü ildə monoqrafiyalarının birində "demoqrafik inqilab" nəzəriyyəsinin əsasını qoymuşdur. Bir qədər sonra, 1945-ci ildə Amerika demoqrafı F.Noutstaynın təklifi ilə həmin nəzəriyyə "demoqrafik keçid" adlandırılaraq, əhalinin artım tiplərinin bir -birini əvəz etməsi səbəblərini açıqlayırdı.

"Beynəlxalq mədəni əlaqələr" kitabında həmçinin göstərilir ki, XX əsrin ikinci yarısında demoqrafik inqilab nəzəriyyəsinin inkişaf etdirilməsində dünyanın müxtəlif ölkələrinin demoqrafları yaxından iştirak etmişlər. Belə ki, bu günün özündə belə demoqrafik proseslərin izahını verən nəzəriyyələrin metodoloji əsasları, başqa sözlə, demoqrafik proseslərin mexanizmlərini, nəticələrini və universallıq dərəcəsini izah edən ideyalar müxtəlifdir. Müasir dövrdə demoqrafiya elmində A.Landri, F.Noutstayn, J. Burja-Pişa, D.Kauqill və S.Enkenin inkişaf etdirdikləri demoqrafik keçidin iqtisadi rasionalizm konsepsiyası aparıcı nəzəriyyədir. Bu konsepsiyada, industrial cəmiyyətdə müasir ailələrdə "şüurlu səviyyədə" uşaq planlaşdırılması ənənəvi aqrar cəmiyyətlərin patriarxal ailələrdə reproduktiv davranışın "irrasionallığı" ilə müqayisəli tədqiq olunur.

Əhali artımının iqtisadi rasionallıq ideyası BMT-nin və digər beynəlxalq institutların demoqrafik konsepsiyalarında dünyanın müxtəlif ölkələri və regionları üçün nəzərdə tutulmuş demoqrafik siyasətin nəzəri əsaslarının işlənilməsində tətbiq olunur. Lakin demoqrafiya elminə əhali artımının iqtisadi rasionallıq ideyasının nəzəri əsaslarının real həyat ilə uzlaşması hadisələri də məlumdur. Demoqrafik keçid haqqında digər nəzəriyyəyə görə doğumların evolyusiyası müəyyən nisbətdə ölüm dinamikasından asılı deyildir. Belə ki, hər iki komponent sosial-iqtisadi şəraitdən asılı olsa da, onların determinasiya mexanizmləri müxtəlifdir.

**Demoqrafik inkişafın rasional konsepsiyaların qeyri-dəqiqliyi bir sıra tədqiqatçıların neomaltuzianlıq cərəyanına müraciət etməsini şərtləndirir. XX əsrin 50-ci illərində inkişaf edən ölkələrdə əhali artımının problemlərini öyrənən neomaltuzianlığın müxtəlif cərəyanları meydana gəldi. Bu cərəyanların nümayəndələri hesab edirdilər ki, əhali sayının kortəbii artımı aclıq, qlobal ekoloji böhran, inkişaf edən ölkələrin iqtisadi geriliyi ilə bağlıdır. Onlar iqtisadi geriliyi aradan qaldırmaq məqsədilə "əhalinin artımı" konsepsiyasını irəli sürmüşdülər.**

**CAVANŞİR**

KİVDF
www.kivdf.gov.az

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi**

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə çap edilib**